*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 495-501*

https://doi.org/10.62837/2025.7.495

**FƏXRİYYƏ İSAYEVA**
**Azərbaycan Dillər Universiteti-dissertant**
**Mingəçevir Dövlət Universiteti- müəllim**
**fexriyyeisayeva_2020@mail.ru**

# SABİR ƏHMƏDLİNİN MÜHARİBƏ ROMANLARINDA ÖZGƏLƏŞMƏ FENOMENI

Mövzusu müharibə olan romanlarda əsasən fərdi ağrılar fonunda təzahür edən özgələşmə kollektiv miqyaslı sarsıntıları əks etdirir. Xüsusən Qarabağ müharibəsindən bəhs edən əsərlərdə bu, ön cəbhə, döyüşlər, qəhrəmanlıq, itkilər və məğlubiyyətin təsviri ilə məhdudlaşmır; daha çox insanın iç dünyasında baş verən çevrilişlərin, onun öz gündəlik həyat tərzindən, doğma torpaq və dəyərlərindən, arzu və xəyallarından qopmasını ehtiva edir. Ədəbiyyat burada müharibənin yalnız xarici gerçəklik deyil, eyni zamanda mənəvi aşınma olduğunu nümayiş etdirir. Bu mənada, özgələşmə müharibənin acı nəticəsi kimi çıxış edir: insan yad ideologiyalara, zorakılığa, məcburi köçkünlük taleyinə uduzduqca, öz arzu və xəyallarından, gələcəyindən olduğu qədər keçmişindən və cəmiyyətdən uzaq düşür.

Müharibə romanlarında fərdin xarakterindəki "sınmalar" sosial-mənəvi boşluqlardan qaynaqlanır. Qaçqınlıq və didərginlik sadəcə fiziki məkan itkisinin deyil, tədriclə mənəvi və mədəni köklərdən qopmanın işarəsinə çevrilir. Öz doğma yurdundan qoparılmış insan yad mühitdə yaşamağa məcbur olduqda, gündəlik davranışından danışıq üslubuna, həyat tərzindən dəyərlərinə qədər dəyişməyə məruz qalır. Bu dəyişmə isə çox vaxt fərdin seçimindən asılı olmur; onu şərait formalaşdırır.

Son illər Azərbaycan romanlarının əksəriyyəti müharibə mövzusunu bu və ya digər dərəcədə özündə əks etdirir; əsas mövzusu olmayanda belə müharibə şəraiti mətnlər üçün fon təşkil edir. Sabir Əhmədlinin "Axirət sevdası", "Kef", "Ömür urası" romanları; Seyran Səxavətin "Nekroloq" (2002), Nüşabə Məmmədlinin "Zəngulə" (2003), Xanəmirin "Ağ bağ" (2003), Mövlud Süleymanlının "Erməni adındakı hərflər" (2005-2006), Aqil Abbasın "Dolu" (2007), Əlabbasın "Qaraqovaq çölləri" (2010), Rafiq Şamiloğlunun "Bəlalı dünya" (2010), Seymur Baycanın "Quqark" (2011), Şərif Ağayarın "Haramı" (2011), Vüsal Nurunun "Qaraqaşlı" (2020) və s. bu kimi bir xeyli romanda isə əsas yeri müharibə mövzusu tutduğundan özgələşmə motivini də qabardır.

Sabir Əhmədlinin yaradıcılığında aparıcı olan, xüsusi həssaslıqla yanaşdığı Qarabağ müharibəsi mövzusunun mərkəzində həmişə insan, ruhun mənəvi dərinliklərinə enmək istəyi durur. Onun müharibə mövzulu əsərlərində özgələşmə təkcə qaçqınlıq və itkilərlə deyil, həm də ictimai və mənəvi faktorlarla bağlıdır. Yazıçı müharibənin həm maddi, həm də mənəvi dağıntılarını, insan psixologiyasına

vurduğu təsiri ustalıqla təqdim edərək oxucunu fərdi və kollektiv travmanın dərin qatları ilə üzləşdirir. Qarabağ mövzusunun çağdaş Azərbaycan ədəbiyyatına məhz S.Əhmədlinin nəsri ilə daxil olduğunu vurğulayan AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu yazıçının müharibə romanlarını "Qarabağ trilogiyası" adlandıraraq, onları belə xarakterizə edir: "*Axirət sevdası" üç romandan ibarət trilogiyadır; əgər eyni adlı birinci romanda Müharibə ilə üz-üzə İnsanın Əbədiyyət axtarışları (ruhi varlığı) predmet seçilmişsə, "Kef"də müharibə şəraitində İnsanın başlıca olaraq nəfsi - cismani yaşamları hədəfdədirsə, "Ömür urası"nda yazıçının diqqəti bu dəfə İnsanın mənəvi siması, "yer sakini"nin məğzi-mənası, Yer ölçüləri üzərindədir.*

*Romanın poetexnologiyası barəsində təzə nəsə deməyə lüzum yox. Ümumən bu yaşda, bu yetkinlikdə yazardan təzə bədiiyyat istəməyin özü yanlış olar; bu yenə də həmən XX əsr Avropa romançılığıdır ki, İnsanın mənəvi (sosial, psixoloji, ekzistensial, altşüur...) dünyasını verir qəhrəmanın düşüncə selinin qabağına və oxucu ilə bahəm baxır-görsün sonu nə olacaq... Bu elə həmən qəhrəman – milli ziyalı obrazıdır ki, S.Əhmədlinin ilk bu tipli romanı – "Dünyanın arşını"ndan (1966-67) çıxıb, bugünəcən ölçə-ölçə milli varlığın parametrlərinə güzgü tutur, yuxulara – divan.*" (4, s. 42) Yazıçının əsərlərində müharibə itki və fəlakət, fərdi ağrılar fonunda xalqın milli yaddaşına nüfuz edən, milli şüur və mənəvi məsuliyyət anlayışlarını oyadan mövzudur.

Sabir Əhmədlinin "Qarabağ trilogiyası"nda özgələşmə fenomeni müharibə insanının yaşantılarını dərindən dərketmə aspektindən nəzərə çarpır. "Axirət sevdası" romanında (2003) yazıçı qəhrəmanlarının, xüsusən də oğlu Məhəmmədi itirən ata obrazının içdünyasına enir. Burada müharibənin törətdiyi dağıntılar obyektiv hadisələrin içindən keçərkən qazanılan mənəvi təcrübələrin və fərdi sarsıntıların fonunda təqdim olunur. Əsərdə qəhrəmanın itirilmiş övladının xatirəsi və bu itki ilə bağlı yaşadığı emosional travma insan psixologiyasının ekstremal vəziyyətlərini açır. Oxucu atanın fərdi kədəri fonunda ümumxalq faciəsinin dəhşətlərini daha dərindən hiss edir. Məhəmmədin ölümündən sonra ata ilə Malik müəllim arasında gedən metafizik dialoqlar, öz içində səslənib boğulan monoloqlar ölüm, ruh, fanilik və əbədiyyət mövzularına yönəlir.

Müharibənin səbəb olduğu faciə insanın fiziki və mənəvi təkləşməsinə, tək qaldıqca öz içinə boylanıb ruhunu dərk etməyə, həyatın və ölümün mənasını sorğulamağa sövq edir. Övlad dərdi atanı kimləsə ürəkdən yaxınlaşmağa qoymur, itkinin ağırlığı onu tənhalaşdırır, mental olaraq özü də övladının köç etdiyi o başqa məkana adlayır. Sanki artıq bu dünyada heç bir işi qalmayıbmış kimi, dərdi\sevdası elə ancaq axirət olur, ölümdən sonrakı həyatı düşünür; həyatın, diriliyin əlamətlərini sadalayıb, sonda əslində ağlının tamam başqa yerdə olduğunu söyləyir: "*Göy suların, bəyaz ləpələrin çırpıldığı hədd; sinənədalğalardan qopan çisək çilənir, gözlərin asudə suların ucqarlarına dikilir. Dənizin geniş meydanı qəlbini alır. Şirələnməkdə olan qoraların, ballanan əncirlərin ətri, tamı, qızmar qum həniri... Məni ölüm*

*düşündürür.*" (3, s.3) Bu mənzərə cismən yaşadığın dünyaya, onun rəngarəng gözəlliklərinə laqeydliyin, övladsız sanki bomboş qalan kainata yadlaşmanın təzahürüdür.

Müəllifin "Kef" romanında isə özgələşmə əsasən iki aspektdən görünür: ziyalı obrazı vasitəsilə fərdin cəmiyyətə, öz dövrünə yadlaşması və bütöv bir toplumun müharibə sonrası sosial-mənəvi boşluqda özünü itirməsi. "*Yazıçının digər əsərləri üçün səciyyəvi olan ictimai gerçəkliyə aktiv münasibət və onu dəyərləndirmə meyilləri burada da davam etdirilmişdir. Lakin müəllif əvvəlki əsərlərində qaldırdığı bir çox sosial məsələlərə daha sərt mövqedən münasibət bildirmiş, bədii mətni bu məc rada aşkarlamağa çalışmışdır.*" (2, s. 84) Əsərin qəhrəmanı olan sadəcə "Kişi" adlanan insan həyatını mənasız gözləntilər, quru ümidlər üzərində qurmuş ziyalıdır.

Romanda simvolik olaraq, cəmiyyət həyatının, taleyin ifadəsi kimi, onun bircə günü təsvir edilir: təqaüd gözləntisi, siyahıya düşmək arzusu, gələcəkdə "əsl kef" etmək xəyalları yalnız şəxsi arzular deyil, bütöv bir nəsil ziyalının gözləntilərlə keçən, cəmiyyətə yad olan taleyinin göstəricisidir. Onun arzuları real imkanları ilə üst-üstə düşmədiyindən əsərdə ironik ziddiyyət yaradır. "*Kef"in ironiyası – həyat ironiyasıdır; bu – bütün parametrlərində: milli-mənəvi-bəşəri-sosial-fizioloji... vücudunda çat vermiş, ağrıyan, amma həyat təşnəsi bitməmiş, tükənməmiş, acı etiraf və mərhəmət doğuran millət Kişisinin romanıdır. Yazıçı nikbinliyi və ironiyasının gücü bundadır ki, həmin yarımcan bədəni mətnə "keçirməklə", fövqündə dura bilir; oxucunu da bura çağırır – qəlbi ağlaya-ağlaya, ağrıya-ağrıya.*" (5, s.202) Buradakı özgələşmə klassik marksist anlamındakı əməyə özgələşmə deyil, daha çox mənəvi böhrandır. "Kişi" öz peşəsinin, keçmiş statusunun, hətta cismani varlığının belə ağrılarını yaşayır. Onun həyatı dəyərsizləşib, gündəlik rutini olan ev-avtobus-iş marşrutu bezdirib, ev əhlinə verib tuta bilmədiyi vədlər onu öz güzündən salıb.

Müharibə mövzusu mətndə birbaşa yox, dolayısı ilə yer alsa da, qaçqınlıq, bununla bağlı sosial qayğılar və mənəvi deqradasiya kimi nəticələri romanın ruhuna hopub. Əsər müharibənin yalnız cəbhədə yox, gündəlik həyatın içində də insanları mənən məhv etdiyini, dəyər və ümidlərini sıradan çıxardığını göstərir. Müharibə toplumun özgələşmiş halını dərinləşdirən səbəbə çevrilir: bir tərəf harın, "kef" içində, digəri səfil və "kef" xəyalında. "Kişi" obrazının adının ümumiləşdirilməsi fərdin yox, əksəriyyətin, xüsusən də ziyalı təbəqənin, sənət adamlarının vəziyyətini ifadə etməsi ilə əlaqədardır. "*Yazıçıların dolanışığı hamısından ağırdır. Özü də, o birilər, rəssamlar, heykəl düzəldənlər bir yolla qazanırlar, ya zıçı qalıb Allah umuduna. Nə kitab çıxara bilir, nə qonorar var. Gərək sponsor tapasan. Sponsorlar da öz yaxınına, tanışa, qazancla bağlı kömək edir.*" (3, s.108)

Fiziki ağrıları ilə mübarizə aparan qəhrəmanın "prostat" qayğıları belə mətnin fəlsəfi qatında cəmiyyətin xəstəliyinə, insan varlığının kövrəkliyinə, sosial-mənəvi deqradasiyanın ifadəsinə çevrilir. Nəticədə, "Kef" romanı azərbaycanlı ziyalının birbaşa və ya dolayı yolla müharibə sonrası reallıqda cəmiyyətə, hətta öz arzularına

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 495-501*

yadlaşmanı göstərən əsərdir. Buradakı özgələşmə həm sosial-iqtisadi (təqaüdə bağlanan ümidlər, ehtiyaclar), həm ictimai-siyasi (keçmişlə indiki zaman arasındakı uçurum), həm də mənəvi böhran (cismani zəiflik, həyatın mənasızlaşması) planında boy verir.

"Ömür urası" əsərində isə özgələşmə konsepti daha geniş və çoxqatlı şəkildə işlənir. *"Ömür urası" Sabir Əhmədlinin xəyallar aləminə virtual səyahətidir. Savaş bitmiş, Qarabağ azad olmuş, itirdiyimiz torpaqlar geri alınmış, qaçqınlar öz yurdlarına qayıtmışlar. Əsər Sabir Əhmədlinin həm xəyalının, həm də gələcək arzularının təsviri, sabaha nikbin baxışı ilə qapanır."* (1, s. 5) Əsərin qəhrəmanı Kişi illər sonra yurduna "dönsə" də, qarşısında gördüyü mənzərə onu məyus edir. Düşmən tərəfindən dağıdılmış evlər, yerlə-yeksan olunmuş kəndlər insanı məkanla bağlayan kökləri, yaddaşı qoparmağa hesablanıb. Kişinin heç yaşaya bilmədiyi yeni tikilmiş evinin viranəsi yuxusu belə gerçəkləşməyən arzunun simvoluna çevrilir. Müharibə insanla yurd yeri arasında məkan və zaman məsafəsini böyütdükcə bağlar sarsılır. Qaçqınların yad şəhər mühitində məskunlaşması da bu yadlaşmanı dərinləşdirir. Çadır şəhərcikləri, dəmir vaqonlar, sığınacaqlar köklü məskən anlayışını əvəz edir: *"Bin-bərəkət yuvası, qaymaq dadan alaçıqların yavanlığı, ağartısıyla ellər dolanırdı. Cındırından cin ürkən çadırlarda bir qarın çörəyə möhtac yazıqlar inləyirdi. Yayda dəmir vaqonların içərisi od tutub yanır, uşaq-böyük qovrulurdu. Bu vaxt polad yollarda şığıyan vaqonların altına, kölgəyə sürünürdü arvad-uşaq. Çölün yağışı – qarı təpələrinə döyür, qışın şaxta-boranı ürəklərini dondururdu. Ölən ölmüş, canı qurtarmışdı, qalansa neçə yol ölüb dirilmişdi.*" (3, s. 12) İnsanların həyat tərzindəki bu dəyişikliklər mənsubiyyət hissinin zəifləməsinə, yurd xatirələrinin gündəlik qayğıların ağırlığı altında itib-batmasına səbəb olur.

Əsərdə vurğuladığı kimi, illər keçdikcə qaçqınların bir qismi doğma yurda qayıtmaq arzusunu unutmağa başlayır, yeni şəraitlə barışır. Bu fakt milli kimliklə bağlı yadlaşmanın müharibə nəticəsində yaranan ən ağrılı ifadəsi kimi təqdim olunur: *"Bakı qaçqınlar şəhərinə çevrilmiş, paytaxtın ovqatı, görünüşü büsbütün dəyişmişdi. Bir yandan yeni burjuyların imarətləri, qəsrlər ucalır, şirkətlər, firmalar, xarici, əcnəbi ofislər yerləşir, məhlə içi, köhnə dalanların arasından, tinlərdən yeni malikanələr baş qaldırır, on səkkiz, iyirmi qat binalar ucalır, başqa yandan, Yasamalda, Xutorda, Alatavada, Badamdarda taxta, kardon sığınacaqlar, it damına bənzər daxmalar, dəmir evciklər, bakılıların quşxanasına oxşar yuvacıqlar, hinlər quraşdırılırdı. Qaçqınlar oturaqlaşır, doğma ev-eşiyə qayıtmaq istəyi silinsəyir, soyuyurdu. "Qaçqın" sözü daha ötəri yox, yurdsuz, didərgin insanların tale-qisməti təki səslənirdi."* (3, s.12) Göründüyü kimi, əsərdə sosial mühitin kontrast təsviri də özgələşməni gücləndirən mühüm bir faktordur. Bir tərəfdə qaçqınların yoxsulluq içində sürünməsi, digər tərəfdə varlı təbəqənin təmtəraqlı imarətlər tikməsi müharibənin yaratdığı sosial ədalətsizliyin göstəricilərindəndir. Nəticə etibarilə, Sabir Əhmədlinin "Ömür urası" romanında özgələşmə müharibənin doğurduğu ən

böyük faciə kimi təqdim edilir. Torpaqdan qopma, sosial mühitdəki parçalanma, milli yaddaşın tədricən aşınması yazıçının ifadə etdiyi əsas dərdlərdəndir – müharibə yurd itkisindən daha ağır nəticələrə səbəb olur.

## Ədəbiyyat

1. Akimova, E. (2020, 11 iyul). Ömrün urasında yaşanan və yazılanlar: II yazı. *Ədəbiyyat qəzeti*, pp. 4–5.
2. Elaydi, Ə. S. (2017). *Müstəqillik dövrü Azərbaycan romanı: Mövzu, problematika və sənətkarlıq məsələləri (1991–2005).* Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi.
3. Əhmədli, S. (2003). *Axirət sevdası*. Bakı: Ozan.
4. Əlişanoğlu, T. (2008). Sabir Əhmədlinin Qarabağ trilogiyası. *Tənqid.net*, (5), 38-45.
5. Əlişanoğlu, T., & Əliyeva, D. (2016). Müharibə nəsri. İçində *Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı* (I cild, s. 1–796). Bakı: Elm və təhsil.

***Açar sözlər:*** Sabir Əhmədli, Qarabağ müharibəsi, roman, yadlaşma, psixoloji sarsıntı, sosial-mənəvi böhran, milli kimlik.

***Ключевые слова:*** Сабир Ахмедли, Карабахская война, роман, отчуждение, психологическая травма, социально-нравственный кризис, национальная идентичность.

***Keywords:*** Sabir Ahmadli, Karabakh War, novel, alienation, psychological trauma, socio-moral crisis, national identity.

## Xülasə

Müasir Azərbaycan ədəbiyyatında müharibə mövzusu yalnız cəbhə və döyüş səhnələrinin təsviri ilə məhdudlaşmır, həm də fərdin daxili dünyasında baş verən sarsıntıları, mənəvi böhranları əks etdirməklə bədii-estetik funksiyasını genişləndirir. Bu baxımdan Sabir Əhmədlinin müharibə mövzulu romanları – “Axirət sevdası”, “Kef” və “Ömür urası” ədəbiyyatımızda özgələşmə fenomenini çoxqatlı şəkildə təqdim etməsi ilə diqqət çəkir. Yazıçı üçün müharibə təkcə torpaq itkisi, qaçqınlıq, məğlubiyyət və qəhrəmanlıq hadisələrinin təsviri deyil, həm də insanın öz dəyərlərindən, gündəlik həyatından, mənəvi köklərindən uzaq düşməsinin bədii ifadəsidir.

“Axirət sevdası” romanında müharibə şəraitində fərdin daxili aləmi, övlad itkisi ilə üzləşmiş ata obrazının psixoloji sarsıntıları ön plana çəkilir. Bu əsərdə özgələşmə insanın fərdi ağrıları fonunda ümumxalq faciəsinin dərki ilə vəhdətdə işlənir. “Kef” romanında isə yadlaşma ziyalı obrazı vasitəsilə bütöv bir nəsil və cəmiyyətin müharibə sonrası sosial-mənəvi boşluqda özünü itirməsi fonunda təqdim olunur. Əsərdə fərdi həyatın mənasızlaşması, ironik gözləntilər və sosial-mədəni deqradasiya

insanın öz peşəsindən, arzularından, hətta cismani varlığından uzaqlaşmasını göstərir. "Ömür urası"nda azad edilmiş Qarabağ məkanı fonunda insanın doğma yurda yadlaşması, qaçqınlıqdan sonra yaddaş və mənsubiyyət hissinin aşınması əsas problem kimi ortaya çıxır. Roman müharibənin fiziki nəticələrindən daha çox, onun doğurduğu mənəvi və kimlik böhranını qabardır.

Sabir Əhmədlinin "Qarabağ trilogiyası"nda özgələşmə həm fərdi psixoloji təcrübələrin, həm də kollektiv sosial-mənəvi sarsıntıların ifadəsinə çevrilir. Müəllif müharibənin insan həyatına təsirini yalnız xarici gerçəkliklə məhdudlaşdırmır, daxili dünyadakı "sınmaları" göstərməklə müasir ədəbiyyatımızda yadlaşma fenomenini orijinal şəkildə işıqlandırır. Onun romanlarında müharibə mövzusu milli yaddaş, kimlik və mənəvi məsuliyyət problemləri ilə birləşərək Azərbaycan nəsrində yeni estetik çalar yaradır.

## РЕЗЮМЕ
## САБИР АХМЕДЛИ И ФЕНОМЕН ОТЧУЖДЕНИЯ В ЕГО ВОЕННЫХ РОМАНАХ

В современной азербайджанской литературе тема войны не ограничивается описанием фронта и боевых сцен, а расширяет свою художественно-эстетическую функцию, отражая внутренние потрясения и духовные кризисы личности. В этом контексте военные романы Сабира Ахмедли — «Axirət sevdası» («Любовь к вечности»), «Kef» («Кеф») и «Ömür urası» («Ход жизни») — привлекают внимание многослойным художественным раскрытием феномена отчуждения. Для писателя война — это не только потеря земли, беженство, поражение или героизм, но и художественное выражение утраты человеком своих ценностей, привычного образа жизни и духовных корней.

В романе «Axirət sevdası» («Любовь к вечности») в центре повествования — внутренний мир героя, отца, потерявшего сына на войне. Отчуждение здесь раскрывается через индивидуальные страдания, одновременно поднимающие осознание общенациональной трагедии. В «Kef» («Кеф») отчуждение выражено через образ интеллигента, чья жизнь в условиях послевоенной социальной и духовной пустоты обретает черты бессмысленности. Личные ожидания, иронические несоответствия между мечтами и реальностью, духовная деградация отражают отчуждение человека от профессии, общества и даже собственного телесного существования. В «Ömür urası» («Ход жизни») акцент переносится на проблему отчуждения беженца, возвращающегося в освобожденный Карабах. Потеря связи с родным домом, разрушение памяти и ослабление чувства принадлежности превращаются в центральные мотивы романа.

Таким образом, в «Карабахской трилогии» Сабира Ахмедли феномен отчуждения предстает как художественное выражение индивидуальных психологических переживаний и коллективных социально-нравственных потрясений. Писатель углубляет восприятие войны, соединяя ее с проблемами национальной памяти, идентичности и духовной ответственности, создавая новые эстетические грани в азербайджанской прозе.

**FAXRİYYA İSAYEVA**

## THE PHENOMENON OF ALIENATION IN SABIR AHMADLI'S WAR NOVELS

## ABSTRACT

In contemporary Azerbaijani literature, the theme of war is not confined to battlefield depictions or combat scenes; it broadens its artistic and aesthetic scope by reflecting the individual's inner turmoil and spiritual crises. In this respect, Sabir Ahmadli's war novels — "Axirət sevdası" (*Love for Eternity*), "Kef" (*Kef*), and "Ömür urası" (*The Course of Life*) — stand out for their multilayered literary representation of the phenomenon of alienation. For Ahmadli, war is not only about the loss of land, displacement, defeat, or heroism, but also a poetic expression of estrangement from values, everyday life, and spiritual roots.

In "Axirət sevdası" (*Love for Eternity*), the focus is on the inner world of a father who has lost his son in war. Alienation is depicted through personal grief that simultaneously conveys the awareness of a national tragedy. In "Kef" (*Kef*), alienation is embodied in the figure of an intellectual whose life, set against the backdrop of post-war social and moral emptiness, becomes meaningless. Unfulfilled expectations, ironic contradictions between dreams and reality, and moral degradation reflect the individual's estrangement from his profession, society, and even his corporeal existence. In "Ömür urası" (*The Course of Life*), alienation is articulated through the refugee's return to liberated Karabakh, where the loss of ties to homeland, the erosion of memory, and the weakening of belonging become central motifs. Thus, in Sabir Ahmadli's "Karabakh Trilogy," alienation emerges as both an individual psychological experience and a collective socio-moral disruption. The author deepens the literary understanding of war by connecting it with issues of national memory, identity, and moral responsibility, thereby introducing new aesthetic dimensions into Azerbaijani prose.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, M.Vahid**